

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 111 (21.772)

13 iyun 2017-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Milli Qurtuluş Günü münasibətilə muxtar respublikanın təhsil müəssisələri ilə Heydər Əliyev Muzeyi arasında interaktiv əlaqə yaradılıb

***Milli Qurtuluş Günü münasibətilə muxtar respublikanın 215 ümumtəhsil məktəbi ilə Heydər Əliyev Muzeyi arasında interaktiv dərs təşkil olunub. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə "Qurtuluş Günü mənim həyatımda" mövzusunda keçilən açıq dərsdə muzeyin direktoru Ramil Orucəliyev əvvəlcə muzey barədə şagirdlərə ətraflı məlumat verib.***

Bildirilib ki, Heydər Əliyev Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il fevralın 18-də imzaladığı Sərəncam əsasında yaradılıb. Muzey həmin ilin may ayının 10-dan fəaliyyət göstərir.

Qeyd olunub ki, Heydər Əliyev Muzeyi müstəqil Azərbaycan Respublikasının qurucusu və memarı olan ulu öndərimizin ictimai-siyasi fəaliyyətinə dair materialların toplanmasını, komplektləşdirilməsini, mühafizəsini, tədqiq və təbliğini həyata keçirən elmi-tədqiqat müəssisəsidir. Muzey ekspozisiya zalından və kitabxanadan, muzey fondundan ibarətdir. Burada kitabxana yaradılıb, ümummilli liderimiz haqqında çəkilmiş filmləri nümayiş etdirmək üçün lazımi avadanlıqlar, kompüter dəstləri quraşdırılıb. Həmçinin muzeyin internet saytı yaradılıb.

"Muzey fondunda ulu öndərin həyat və fəaliyyətini özündə əks etdirən 4 min 656 ədəd eksponat toplanıb", – deyən Ramil Orucəliyev bildirib ki, bu eksponatlar ümummilli liderimiz Heydər Əliyevin ictimai-siyasi fəaliyyətini, keçdiyi şərəfli həyat yolunu özündə əks etdirən kitab, qəzet və jurnallardan, qəbul etdiyi tarixi qərar və sərəncamlardan, imzalanmış protokol və müqavilələrdən, məktub və teleqramlardan, istifadə etdiyi xatirə əşyalarından, ulu öndərin şərəfinə toxunmuş xalçalardan, çəkilmiş portretlərdən, tarixi fotolardan və sənədli filmlərdən ibarətdir.



Muzeyin direktoru qeyd edib ki, xalqımız tarixin ən sərt, çətin sınaqlarından keçərək milli dövlətçilik ənənələri əxz edib, bu ənənələri məhz ulu öndər Heydər Əliyevin rəhbərliyi altında vahid sistem halına salaraq özünütəsdiq imkanı qazanıb. 1991-ci ilin oktyabrında dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan 1993-cü ilin iyun ayına qədərki müddətdə böhranlar, xaos və çaxnaşmalarla qarşılaşmışdı. AXC-Müsavat iqtidarının hakimiyyəti dövründə idarəetmədə buraxılan kobud səhvlər, yaranmış ağır sosial-iqtisadi gərginlik və hakimiyyət davası ölkəni vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qoymuşdu. Cəbhədəki məğlubiyyətlər, torpaqların itirilməsi yeni-yeni faciələrin baş verməsinə səbəb olmuşdu. Gəncədə 1993-cü ilin iyun ayında baş verən hadisələr vəziyyəti daha da ağırlaşdırmışdı. Məhz belə bir vaxtda, xalqın çətin günündə onu bu bəlalardan xilas edə biləcək tarixi bir şəxsiyyətin, müdrik siyasi xadimin hakimiyyətə gəlişi labüd idi. Vəziyyətdən çıxış yolu arayan Azərbaycan xalqı haqlı olaraq nicat yolunu ümummilli liderimiz Heydər Əliyevin siyasi hakimiyyətə qayıtmasında görürdü. Xalqının çağırışına biganə qala bilməyən ulu öndərin yenidən siyasi hakimiyyətə qayıdışı insanların qəlbində sönmüş müstəqillik arzularını yenidən alovlandırdı.

Vurğulanıb ki, görkəmli dövlət xadimi Heydər Əliyevin xalqın istək və tələbi ilə 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya qayıdışı və 6 gün sonra – iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçilməsi xalqımızın ulu öndərin xilaskarlıq missiyasına olan ümid və inamının göstəricisi idi. Onun xilaskar missiyası ilə gəlişi dövlətçilik tariximizin səhifəsinə şanlı bir gün yazdı, 15 iyun tarixə Milli Qurtuluş Günü kimi daxil oldu. Azərbaycan Respublikasının Milli Məclisi ulu öndər Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı gününü 1997-ci il 27 iyun tarixli qərarı ilə rəsmi olaraq Azərbaycan xalqının Milli Qurtuluş Günü elan etdi.

Ramil Orucəliyev şagirdlərin nəzərinə çatdırıb ki, ötən dövr ərzində ölkəmizin nail olduğu hərtərəfli inkişafı muxtar respublikamızın simasında daha aydın görmək mümkündür. Milli Qurtuluşun işığında böyük və şərəfli yol keçən qədim diyarımızda cəmiyyət həyatının bütün sahələrini əhatə edən genişmiqyaslı islahatların, dövlət proqramlarının həyata keçirilməsinin nəticəsidir ki, Naxçıvan Muxtar Respublikası bu gün ən müasir diyara çevrilib. Bu gün həyatımızın elə bir sahəsi yoxdur ki, orada Milli Qurtuluşun bəhrələri görünməsin. Yeni məktəblər, səhiyyə ocaqları,



Heydər Əliyev adına Hərbi Lisey



Naxçıvan şəhər 3 nömrəli tam orta məktəb



Şərur şəhər 2 nömrəli tam orta məktəb

mədəniyyət müəssisələri, rahat və abad yollar, gözəl yaşayış binaları son 24 ildə əldə etdiyimiz hərtərəfli inkişafın nəticəsində həyata vəsiqə qazanıb. İndi hər kəs Milli Qurtuluşun bəhrələrini görür, ulu öndər Heydər Əliyevin bu gün də uğurla davam etdirilən dövlətçilik siyasətini, quruculuq missiyasını müdafiə edir, ümummilli liderin yoluna sədaqət göstərirlər. Çünki bugünkü firavan həyatımızın təməli məhz görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən qoyulub.

Xatırladaq ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamı muxtar respublikada elektron təhsilin tətbiqinin genişləndirilməsinə, təhsil müəssisələrində virtual tədris mühitinin formalaşdırılmasına və tədrisin səmərəliliyinin daha da artırılmasına hərtərəfli şərait yaradıb. Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, muxtar respublikada distant tədrisin tətbiqi keyfiyyətcə özünün yeni mərhələsinə qədəm qoyub. Xüsusilə muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələrin yaradılması şagird və tələbələrin həmin muzeylərlə tanışlığının təmin olunmasına öz töhfəsini verir.

Səbuhi HƏSƏNOV

## Ordubad rayonunda əhalinin məşğulluğu təmin olunur

***Son illərdə muxtar respublikada yeni istehsal və emal müəssisələrinin həyata vəsiqə alması yeni iş yerlərinin də yaradılmasını zəruri edib. Bu da muxtar respublikada əmək bazarının tənzimlənməsinə töhfəsini verir.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" bu istiqamətdə həyata keçirilən tədbirlərin daimi xarakter almasını daha da gücləndirib. Proqramda işaxtaran vətəndaşların məşğulluğunun təmin edilməsi və sosial müdafiəsinin gücləndirilməsi günün zəruri tələbi kimi qarşıya qoyulub. Muxtar respublikanın məşğulluq orqanları da öz işlərini adıçəkilən proqramdan irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində qurur.

Bunu Ordubad Rayon Məşğulluq Mərkəzinin fəaliyyətində də görmək olar. Mərkəzin direktoru Telman Həsənovla söhbət zamanı bildirdi ki, rayonun əmək bazarında tələb və təklifin müəyyənləşdirilməsi məqsədilə real vəziyyət təhlil olunur, işçi qüvvəsi ilə mövcud iş yerlərinin sayı arasında fərq dəqiqləşdirilir. Mərkəz işaxtaran kimi müraciət edən vətəndaşların məşğulluğunu təmin etmək üçün çevik formalardan istifadəni diqqət mərkəzində saxlayır, öz işini rayon ərazisində fəaliyyət göstərən müəssisə və təşkilatlarla sıx əməkdaşlıq şəraitində qurur, boş iş yerləri haqqında məlumatlar toplayır. Rübdə bir dəfə keçirilən əmək yarmarkalarında həmin iş yerləri işaxtaran vətəndaşlara təqdim olunur. 2016-cı il ərzində Məşğulluq Mərkəzi tərəfindən 367 nəfər işaxtaran qeydiyyata alınıb, onlardan 350 nəfər müxtəlif sahələrdə işlə təmin olunub.

Muxtar respublika əhalisinin böyük bir hissəsini qadınlar və gənclər təşkil edir. Ordubad rayonunda da bu qəbildən olan insanlar qayğı ilə əhatə olunublar. Belə ki, adıçəkilən dövr ərzində işə düzələnlərin 147 nəfəri gənc, 108 nəfəri isə qadın olub. Sağlamlıq imkanları məhdud olan 4 şəxs, cəzaçəkmə müəssisəsindən azad edilən 1 nəfər vətəndaş, hərbi xidmətdən tərxis olunan 2 gənc də bu qayğıdan yararlanıb.

Qeyd edək ki, mərkəz aktiv məşğulluq tədbiri kimi əmək yarmarkalarının hazırlanıb keçirilməsinə xüsusi diqqət yetirir. Bu dövr ərzində keçirilmiş əmək yarmarkalarında işaxtaranlara 17 idarə, müəssisə, təşkilat və özəl sektordan 145 boş iş yeri təqdim olunub. Keçirilmiş əmək yarmarkasında 41 nəfər vətəndaş işlə təmin edilib.

Məşğulluq Mərkəzi sosial müdafiəyə daha çox ehtiyacı olan vətəndaşların da müraciətlərinə həssaslıqla yanaşır, onların problemlərinin həllinə çalışır. Bunun nəticəsidir ki, ötən il bu kateqoriyadan olan 13 nəfər kvota (norma) yerlərinə göndərilib.

Əmək bazarında peşələrə tələbatı müəyyənləşdirmək məqsədilə rayonun müəssisə və təşkilatlarında rübdə bir dəfə sorğuların keçirilməsinə ciddi önəm verilir, vətəndaşların peşə hazırlığına cəlb olunması da diqqət mərkəzində saxlanılır. Ötən il 3 nəfər peşə kursuna cəlb edilib.

2016-cı il ərzində işaxtaran vətəndaşların müvəqqəti məşğulluğunu təmin etmək üçün 34 nəfərin haqqıödənilən ictimai işlərə cəlb olunması da həyata keçirilən tədbirlər sırasındadır. Belə ki, 4 nəfər sağlamlıq imkanları məhdud qadınla müqavilə bağlanıb, onların evlərdə yun şərf və corab toxumaları təmin edilib. Bu müddət ərzində toxunmuş 162 cüt yun corab və 51 ədəd yun şərf hərbi hissələrə təhvil verilib.

Telman Həsənov onu da bildirib ki, adıçəkilən dövlət proqramından irəli gələn vəzifələri daha dolğun yerinə yetirmək üçün mərkəz 2017-ci ilə də uğurla başlayıb. Belə ki, cari ilin I rübü ərzində işaxtaran vətəndaşların məşğulluğunun təmin edilməsi və sosial müdafiəsinin gücləndirilməsi məqsədilə bir sıra tədbirlər həyata keçirilib. Bu dövrdə Məşğulluq Mərkəzi tərəfindən 66 nəfər işaxtaran qeydiyyata alınıb, 62 nəfər müxtəlif sahələrdə işlə təmin olunub. Bu ilin ötən dövrü ərzində işə düzələnlərin 17 nəfərini gənc, 33 nəfərini isə qadınlar təşkil edib. Hərbi xidmətdən tərxis olunmuş 59 nəfərlə əlaqə saxlanılıb, onların müxtəlif peşələrə yiyələnməsi üçün kurslar təklif edilib.

Bu dövrdə sağlamlıq imkanları məhdud şəxslərin məşğulluğunun təmin olunması diqqətdə saxlanılıb, bir nəfər ictimai işə cəlb edilib.

Peşə seçiminə köməklik, peşə və ixtisaslar barədə məlumatların verilməsi məqsədilə rayonun ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri üçün tədris müddəti ərzində peşəyönümlü məşğələlər keçirilib.

Həmin dövrdə işaxtaran vətəndaşların müvəqqəti məşğulluğunu təmin etmək üçün 2 nəfər işaxtaran vətəndaş haqqıödənilən ictimai işlərə cəlb olunub. Mərkəzin kollektivi gələcəkdə də bu sahədə kompleks nəticələr əldə etməklə dövlət proqramının qarşıya qoyduğu əsas məqsədlərdən olan işaxtaran insanların sosial müdafiəsini gücləndirməyə, daha çox yeni iş yerləri müəyyənləşdirərək əhalinin gəlirlərini artırmağa və əmək bazarını daha təkmil hala gətirməyə nail olmağa çalışacaqdır.

M. MƏMMƏDOV

*İstehsal müəssisələri*

## “Danyeri” dondurmalarına tələbat artır

***Yay fəslinin ən ləziz nemətlərindən biri də dondurmadır. Dondurma uşaqdan-böyüyə hər kəs tərəfindən sevilir, istirahət dəqiqələrində bu ləziz nemətdən tez-tez istifadə olunur. Bu gün təkcə Naxçıvan şəhərində dondurma satışı üzrə ixtisaslaşmış onlarla ictimai iaşə obyekti fəaliyyət göstərir, gərgin iş günündən sonra şəhər əhalisi bu məkanlarda istirahət edir, ləziz dondurmaların dadına baxır.***

Təbii ki, bu məkanlara insanların üz tutmasının səbəblərindən biri də satılan dondurmanın dadı və keyfiyyəti ilə bağlıdır. Çünki paket halında bu məhsul sovetlər dövründə ittifaqın müxtəlif bölgələrindən muxtar respublikaya gətirilir, buna görə də insanların o qədər də seçim etmək imkanları qalmırdı. Ancaq indi muxtar respublikada dondurma istehsalı ilə məşğul olan bir neçə müəssisə var. Onlardan biri də artıq istehlakçılar arasında xüsusi ad qazanmış, “Danyeri” əmtəə nişanı ilə dondurma istehsal edən müəssisədir. Müəssisənin məhsulları həm qiymətinin ucuzluğu, həm də keyfiyyətinə görə analoqlarından, eləcə də xaricdən idxal olunan məhsullardan seçilir.

Əziz Əliyev küçəsində fəaliyyət göstərən “Danyeri dondurmaları” müəssisəsində yaradılan şərait və istehsal prosesi ilə yaxından tanış olmaq üçün ötən günlərdə adıçəkilən ünvanda olduq. Yay mövsümünə çox az bir müddətin qalması burada iş prosesini sürətləndirib. İşçilər gündən-günə artan tələbatı dolğun ödəmək üçün səylə çalışırlar.

Müəssisənin rəhbəri Nəriman Tarverdiyev bizimlə söhbətində bildirdi ki, 2000-ci ildən “Alyeda dondurmaları” adı altında fəaliyyətə başlayan müəssisənin məhsulları 2013-cü ildən etibarən “Danyeri” dondurmaları adı ilə satışa çıxarılır. Burada xammal və hazır süd məhsullarının istehsalı üçün müasir standartlara uyğun texnoloji avadanlıqlar, hazır məhsulun saxlanılması üçün soyuducu anbar vardır. Təbii ki, yaradılan şərait keyfiyyətli məhsul istehsalına imkan verir. Dondurma çeşidlərinin ayrı-ayrı ünvanlara vaxtında çatdırılması işi də daim diqqətdə saxlanılır. Belə ki, bu məhsullar gün ərzində marketlərə, iaşə obyektlərinə paylanılır. Daşınmalar zamanı soyuducu kameralarla təmin olunmuş nəqliyyat vasitələrindən istifadə edilir, mütəmadi olaraq istehlakçıların tələbləri və fikirləri öyrənilir, bu əsasda istehsalda yeniliklər edilir.

Burada olarkən istehsal prosesi ilə tanış olduq. Qəbul edilən süd əvvəlcə 250 litr tutumlu qazanlara tökülür, müəyyən proseslərdən keçdikdən sonra taralara qablaşdırılır, üzərinə tərkibi, istehsal tarixi və saxlanma müddəti göstərilən etiket vurulur. Müəssisədə, ümumilikdə, 12 çeşiddə dondurma istehsal olunur. 70 qramlıq və 1 kiloqramlıq “Danyeri plombir”, 50 qramlıq ”Danyeri südlü”, 0,5 kiloqramlıq “Danyeri” dondurmaları geniş alıcı kütləsi qazanıb. İstehsal prosesi ilə tanışlığımızda sanitar-gigiyenik və texniki təhlükəsizlik qaydalarına ciddi əməl edildiyinin də şahidi olduq.

Müəssisə rəhbəri onu da bildirdi ki, hər bir alıcı dondurma alarkən mütləq məhsulun saxlanma şəraitini, tərkibini, istehsal müddətini göstərən etiketi oxumalıdır. Dondurma məhsulları mənfi 10 dərəcəyədək temperaturda saxlanılmalı və istifadə müddəti ən çox 20 gün olmalıdır. Müəssisənin istehsal etdiyi dondurmaların üzərində saxlama müddəti normativ sənədlərlə müəyyən edilmiş çərçivədə göstərilir, istehsal olunan dondurmaların uyğunluq sertifikatı vardır.

Bəs bu məhsullara istehlak məkanlarında münasibət necədir? Bu suala cavab tapmaq üçün bir neçə mağazada və ictimai iaşə müəssisəsində olduq, sahibkarların fikirlərini öyrəndik. Mağaza sahibləri ilə söhbət zamanı məlum oldu ki, əvvəllər alıcılar xarici ölkələrin məhsullarına üstünlük versələr də, yerli “Danyeri” əmtəə nişanı ilə satışa buraxılan məhsulların keyfiyyəti ilbəil artdığından son illərdə bu sahədə vəziyyət xeyli dəyişib. İndi alıcıların əksəriyyəti qiymət sarıdan sərfəli olan bu dondurmalara üstünlük verir.

Dondurma haqqında həkim məsləhətlərini oxucularımızla bölüşmək də yerinə düşər. Belə ki, dondurma bir qayda olaraq yeməkdən sonra yavaş-yavaş yeyilməlidir. Dondurmanın əsas maddəsi süd olduğu üçün bəsləyici qida sayılır. Belə ki, uşaqlar istilərin düşməsi ilə süd içməkdən imtina edir və bu boşluğu dondurma ilə əvəz edə bilirlər. Dondurmanın tərkibində A, B, C, D və E qrupuna daxil vitaminlərlə birlikdə kalsium, fosfor, maqnezium, dəmir və sair minerallar da var. Buna görə də yaxşı hazırlanmış dondurma həm də vitamin mənbəyi sayıla bilər.

Mütəxəssislərin fikirlərinə görə, dondurma növündən, dadından və enerji dəyərindən asılı olaraq insanın əhvalına bu və ya digər dərəcədə təsir göstərir. Əgər yay fəslində əhvalınızın çox yaxşı olmasını istəyirsinizsə, onda istirahət dəqiqələrinizi və isti yay günlərini bu dondurmalarla keçirməyə dəyər.

✍ **Nail ƏSGƏROV**



***Torpağı bərəkətli, insanları zəhmətkeş olan Sədərək rayonunda taxıl biçininə hazırlıq işləri yüksək sürətlə aparılır. Cari ilin məhsulu üçün keçən ilin payızında 1706 hektarlıq sahəyə buğda, 511 hektarlıq əraziyə isə arpa toxumu səpilib.***

## Sədərəkdə taxıl biçininə hazırlıq işləri görülür

İndi Sədərək rayonunun taxıl sahələri “sarı kəhrəba dənizi”ni xatırladır. Zəmilər bolluq, bərəkətdən soraq verir. Taxılçılar cari mövsümdə də yüksək nailiyyətlər əldə etmək əzmindədirlər.

Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, maşın və kombaynlara texniki baxış keçirilib, hamısı işlək vəziyyətə gətirilib. Biçin kampaniyasına 5 ədəd taxılbiçən kombaynın, 5 ədəd yükdaşıyan maşının, 4 ədəd küləş bağlayan aqreqatın cəlb edilməsi nəzərdə tutulub. Əkin sahələrinin yanğından mühafizəsi də diqqət mərkəzindədir. Hər il olduğu kimi, bu il də məhsulun itkisiz yığılmasına xüsusi diqqət ayrılacaqdır.

Qeyd edək ki, ötən il 1947 hektarlıq ərazini əhatə edən taxıl zəmilərindən 6603 ton məhsul toplanılıb.

**Xəbərlər şöbəsi**

## Didivar kəndində salınan üzüm bağlarından bol məhsul gözlənilir

“2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı” ölkəmizdə, eləcə də muxtar respublikamızda üzümçülük sahəsində dövlət siyasətinin və strategiyasının həyata keçirilməsində mühüm rol oynayır. Adıçəkilən dövlət proqramı muxtar respublikada da üzümçülüklə məşğul olan sahibkarların fəaliyyətini gücləndirir, yeni üzümçülük təsərrüfatlarının yaradılmasına əhəmiyyətli təsir göstərir.

Bunun nəticəsində son illər muxtar respublikada yüzlərlə hektar üzüm bağları salınıb, istehsal artırılıb. İqtisadi səmərəliliyi olduqca yüksək olan üzümçülük sahəsində zəngin təcrübə əldə edən babəkli sahibkarlar da üzüm bağlarını genişləndirirlər. Didivar kəndində salınan Hüseynqulu Bədəlova məxsus üzüm bağından da bol məhsul gözlənilir.

Torpaq mülkiyyətçisinin 4 il əvvəl saldığı üzüm bağı iki hektara yaxındır. Sahibkarlığa Kömək Fondundan 26 min manat vəsait götürərək təsərrüfatı genişləndirən kənd sakini burada müxtəlif üzüm sortları yetişdirir.

Müsahibimiz qeyd etdi ki, muxtar respublikanın digər rayon və kəndlərindən, eləcə də qonşu ölkələrdən gətirilmiş sortlar məhsuldarlığı ilə seçilir. Ağ, qırmızı, sarı, qara, qəhvəyi kişmişilər, əsgəri, xəlili, kürdəşi, həmçinin bənənyari, miskalı, ağ tayfı, ağ aldərə, hənəqırna, Naxçıvan şanısı kimi məşhur yerli üzüm sortları ən gözəl seleksiya növləridir.

Təcrübəli üzümçü dedi ki, babası Hüseynqulu kişi də sovet dönəmində üzümçülüklə məşğul olub: “Torpaqların kollektiv təsərrüfatlara cəlb edilməsi zamanı bağlarımız əlimizdən alınıb. Ancaq müstəqillik illərində əlverişli sahibkarlıq mühiti, yaradılan şərait imkan verdi ki, gözəl bir bağ salım. Bu gün dövlət qayğısı sayəsində bu bağa sahib olmaq imkanı əldə etmişəm. Çalışacağam ki, gələcəkdə məhsulun həcmini artırım, bu sahəyə işçi qüvvəsi də cəlb edim”.

Üzüm bağında bol məhsul yetişdirilməsi, məhsulun yüksək keyfiyyətə malik olması belə deməyə əsas verir ki, bu sahə ilə məşğul olan digər sahibkarlarla bərabər, Hüseynqulu Bədəlov da daxili bazarın yerli üzümçülük məhsulları ilə təminatına öz töhfəsini verəcək.

**Muxtar RZAZADƏ**

***Azərbaycanda arıçılıq və bal istehsalı ilə eramızdan əvvəlki dövrlərdən məşğul olunması haqqında tarixi mənbələrdə məlumatlar vardır. Arıçılıqla, balla bağlı yaranan zərb-məsəllər, atalar sözləri də bu sahəyə olan marağın ifadəsidir. Bir sıra arxeoloji materialların təhlili, xüsusilə mum qəliblər vasitəsilə metal əşyaların hazırlanması texnikası ölkəmizdə arıçılığın çox qədim zamanlardan inkişafını göstərir. Eramızdan əvvəl III-II minilliklərdə arı mumundan sənətkarlığın müxtəlif sahələrində istifadə olunması haqda da məlumatlar mövcuddur.***

## Bölgələrimizdə arıçılıq inkişaf etdirilir

### *Dövlət qayğısı arıçılara fəaliyyətlərini daha da genişləndirməyə şərait yaradır*



Naxçıvanda qədim zamanlardan günümüzə qədər təsərrüfatın aparıcı sahələri sayılan əkinçilik və maldarlıqla yanaşı, başqa yardımçı təsərrüfat sahələri də inkişaf etdirilib. İnsanların həyat şəraitinin yaxşılaşmasında əhəmiyyətli rol oynayan belə təsərrüfat sahələrindən biri də arıçılıqdır. Muxtar respublikanın təbii-coğrafi iqlimi, zəngin floraya malik olması arıçılığın geniş yayılmasına imkan verib. Bu sahənin Naxçıvanda nə vaxtdan yarandığı elmə dəqiq məlum deyil. Ancaq Ballıqaya, Pətəklik, Pətəkqoyulan kimi coğrafi adların bu gün də mövcud olması burada insanların qədim dövrdən arıçılıqla məşğul olduğunu göstərir. Tarixi qaynaqlara görə, Naxçıvanda arıçılıq – vəhşi arı balı toplamaq, meşə arıçılığı və mütərəqqi arıçılıq kimi inkişafın bütün mərhələlərini keçib. XIX əsr və XX əsrin əvvəllərindən Naxçıvanda arıçılığın xüsusi təsərrüfat sahəsinə çevrildiyi, hətta bəzi təsərrüfatlarda böyük arıxanaların olması haqqında məlumatlara rast gəlirik. XIX əsr rus tədqiqatçısı V.Q.Qriqoryevin məlumatlarına görə, həmin yüzilliyin 30-cu illərində Ordubad dairəsində əhalinin əksəriyyəti arıçılıqla məşğul olub. Tədqiqatçı N.N.Şavrov yazırdı ki, Ordubad qəzasında 3500 arı ailəsi saxlanılıb. Həmin dövrdə K.A.Qorbaçev Ordubad ərazisində 2 arı cinsinin olması haqqında məlumat verib.

Son illər digər təsərrüfat sahələri kimi, muxtar respublikamızda arıçılığın inkişafına da böyük qayğı göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı”ndan irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədilə arıçılara güzəştli kreditlərin verilməsi, arıçılarla maarifləndirici söhbətlərin diqqət mərkəzində saxlanılması böyük uğurlar qazanılmasını təmin edib. Qeyd edək ki, əgər muxtar respublikada 2000-ci ildə 12 min 620 arı ailəsi vardısa, hazırda arı ailələrinin sayı 70 mindən çoxdur. Muxtar respublikanın mövcud bitki örtüyü burada 100 mindən çox arı ailəsi saxlamağa imkan verir. Bir il ərzində arı ailələrindən 2000 tondan artıq əmtəəlik bal əldə etmək mümkündür.

Şərur rayonunun Tənənəm, Havuş, Ordubad rayonunun Tivi, Biləv, Ələhi, Babək rayonunun Buzqov, Culfa rayonunun Şurud, Şahbuz rayonunun Kükü və digər kəndlərinin adı ilə tanınan Naxçıvan balı bir sıra keyfiyyət göstəricilərinə görə Azərbaycanda, eyni zamanda qonşu ölkələrdə yüksək qiymətləndirilir.

Muxtar respublikanın arıçılıq təsərrüfatlarında sahibkarlar arasında maarifləndirmə işlərinin aparılması, bal və digər arıçılıq məhsullarının emalı və qablaşdırılması müəssisələrinin yaradılması, arıçılıq məhsullarının ixracının stimullaşdırılması, arı xəstəliklərinin qarşısının alınması üçün zoobaytar tədbirlərin genişləndirilməsi, heyvandarlıq-arıçılıq sahələri üzrə əczaxanaların yaradılmasının dəstəklənməsi arıçılığın inkişafına nail olunmasına geniş imkanlar açır. Bundan başqa, bu sahənin inkişaf etdirilməsi əhalinin məşğulluğunun artırılmasında da mühüm rol oynayır.

Dövlət proqramından irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində həyata keçirilən tədbirlər, əldə edilən nailiyyətlərlə tanış olmaq üçün muxtar respublikanın arıçılıqla daha çox məşğul olan bölgələri ilə əlaqə saxladıq. Bu bölgələrdən biri də Ordubad rayonudur. Qeyd edək ki, rayonun təkcə Bist kəndində arı saxlamayan ailə yoxdur. Adıçəkilən inzibati ərazi dairəsi üzrə nümayəndəliyin tərkibində Ələhi kəndi də vardır. Bistdə 129, Ələhidə isə 31 təsərrüfatda 1217 arı ailəsi saxlanılır ki, bu da orta hesabla hər təsərrüfatda 70-dən yuxarı arı ailəsinin olması deməkdir.

Bu faktları öyrəndikdən sonra Bistə getməyi qərara aldıq. Bu kənddə bir neçə arıçı ilə görüşdük. 91 yaşlı təqaüdçü-müəllim Mahmud Tahirov deyir ki, ağlım kəsəndən bu kəndlərdə arı saxlanıldığını görmüşəm. Arı həssaslığı sevir. Bu sahə ilə məşğul olanlar, necə deyərlər, arının nazını çəkməyi bacarmalıdırlar, onun dilini bilməlidirlər. Yalnız bu halda yüksəkkeyfiyyətli məhsula sahib ola bilərsən. Onu da deyim ki, həmkəndlilərim arıçılıqda yaxşı təcrübə qazanıblar. Münbit şərait, dövlət qayğısı və qazanılmış təcrübə kənd adamlarının ailə büdcələrini bu sahə üzrə formalaşdırmağa imkan verib. Mövsüm vaxtı bu məhsul üçün kəndə gələnlər az olmur. Yay aylarında rayonun digər yaşayış məntəqələrinin arıçıları da arı ailələrini buraya gətirirlər.

Məlumat üçün bildirək ki, yetişdirilən məhsulun satış ünvanları da çox genişdir. Ötən il Naxçıvan şəhərində “Arıçılıq məhsulları – bal” festivalının təşkil edilməsi də arıçıların ürəyincə olub. Onlar öz məhsullarını festival vasitəsilə nümayiş etdirə biliblər. Festivalda Bist kəndindən olan arıçılar da fəal iştirak ediblər.

Bistli arıçılardan Tahir Tahirov uzun illərdir ki, bu sahə ilə məşğul olur. Deyir ki, kəndimizin təmiz havası, suyu, gül-çiçəyi keyfiyyətli bal istehsalında mühüm rol oynayır. Dövlətimizin bu sahəyə göstərdiyi qayğı arıçılığa marağı daha da artırıb. Eşitdiyimə görə, Naxçıvan şəhərindəki peşə məktəbində arıçılıq kursu açılıb. Çox sevinirik ki, bu kurslar vasitəsilə qədim peşə olan arıçılıq inkişaf etdirilir.

Daha bir həmsöhbətimiz olan Mədinə Cabbarova uzun illər kənd kitabxanasının müdiri vəzifəsində işləyib. Hazırda təqaüddədir. Arıçılıqla məşğul olur. Deyir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin arıçıların problemləri ilə maraqlanması, qəbul edilən dövlət proqramı iqtisadi cəhətdən xeyli gəlirli olan bu sahənin inkişafına qayğının ifadəsidir.

Kənd sakinlərindən Əkrəm Gülməmmədov isə bildirir ki, arının məhsulu min bir dərdin dərmanıdır, təbabətdə geniş istifadə olunur. Bir çox xəstəliklər balla müalicə edilir. Bundan əlavə, baldan məişətdə şirniyyat məhsullarının hazırlanmasında da geniş istifadə olunur. Bu gün də, keçmişdə də baldan hazırlanmış Ordubad paxlavası, ballı tort hər yerdə şöhrət qazanıb.

Həmsöhbət olduğum digər bistlilər də arıçılıqla bağlı qəbul edilmiş dövlət proqramının onların bu sahə ilə məşğul olmasına əlavə stimul verdiyini, dövlətimizin qayğısını hər zaman üzərlərində hiss etdiklərini bildirdilər.

✍ **Muxtar MƏMMƏDOV**

## Görkəmli şair-dramaturqun ev-muzeyi və xatirə kompleksi ziyarət olunub

***Naxçıvan Dövlət Universitetinin kollektivi görkəmli dramaturq, filosof-şair Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksində olub.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamına uyğun olaraq, Naxçıvan Dövlət Universitetinin kollektivi Hüseyn Cavidin Naxçıvan şəhərindəki ev-muzeyini və xatirə kompleksini ziyarət edib.

Məlumat verilib ki, böyük ədibin xatirəsinin əbədiləşdirilməsində, onun zəngin irsinin qorunub saxlanılmasında ümummilli lider Heydər Əliyevin əvəzsiz rolu, misilsiz xidmətləri olub. 1982-ci ilin noyabr ayında ulu öndərin təşəbbüsü və böyük qayğısı nəticəsində ölməz şairin nəşi uzaq Sibirdən öz doğma yurduna – Naxçıvan torpağına gətirilib, burada dəfn olunaraq xatirəsi əbədiləşdirilib. 1996-cı ildə ulu öndər Heydər Əliyevin himayəsi ilə ədibin məzarı üzərində əzəmətli məqbərə ucaldılıb.

Görkəmli şair-dramaturq Hüseyn Cavidin ev-muzeyində məlumat verilib ki, bu mədəniyyət müəssisəsi ədibin anadan olmasının 100 illiyi ilə əlaqədar 1982-ci ildə onun yaşadığı evdə yaradılıb. Azərbaycan ədəbiyyatında ilk mənzum faciə və dramların müəllifi olan Hüseyn Cavid 1919-cu ilə qədər fasilələrlə bu evdə yaşayıb və ölməz əsərlərindən bir neçəsini burada qələmə alıb.

Vurğulanıb ki, muzeyin fondunda 9 mindən artıq eksponat qorunub saxlanılır. Bu eksponatların 500-ə yaxını ekspozisiyada nümayiş etdirilir.

Müxtəlif fotoşəkillər, ədibin əsərlərinin ilk nəşrləri, üzərində şairin avtoqrafı olan əsərlər, tamaşaya qoyulmuş dram əsərlərinin afişa və proqramları, müxtəlif xatirə və ev əşyaları, şairin oğlu Ərtoğrol Cavid və qızı Turan xanımın əsərləri, müxtəlif dövrlərdə nəşr olunmuş kitablar ziyarətçilərdə görkəmli şair-dramaturqun həyat və yaradıcılığı barədə dolğun təəssürat yaradıb.

**Səadət ƏLİYEVA**

*Turizm*

## Muxtar respublikamız kənd turizminin inkişafı baxımından böyük potensiala malikdir



***Naxçıvan Muxtar Respublikasında aparılan genişmiqyaslı quruculuq işləri, yaradılan müasir infrastruktur, yaşıllıqların artırılması, tarixi abidələrin bərpası istiqamətində həyata keçirilən çoxşaxəli tədbirlər bu qədim diyarda turizmin bir sıra növlərinin inkişafı üçün real zəmin hazırlayıb. Tarixi-mədəni, dini, sağlamlıq turizmi ilə yanaşı, kənd turizminin də inkişafı üçün muxtar respublika geniş potensiala malikdir. Ən ucqar dağ kəndlərinədək çəkilən abad yollar, yaşayış məntəqələrinin qaz, su, elektrik, rabitə və internetlə təminatı, bütün bölgələri əhatə edən quruculuq tədbirləri də buna şərait yaradıb. Təbii ki, əhalinin kənd təsərrüfatının ayrı-ayrı növləri ilə məşğul olması, qonaqpərvərliyi və zəngin süfrə mədəniyyəti də buna öz təsirini göstərir.***

Nəzərə alsaq ki, əhalinin 70 faizi kəndlərdə yaşayır, o zaman kənd turizminin muxtar respublika iqtisadiyyatı üçün nə qədər əhəmiyyətli olduğunu bir daha görərik. Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin xətti ilə keçirilən maarifləndirici tədbirlər də bu sahənin inkişafına istiqamətlənib. Əhalinin iştirakı ilə keçirilən həmin tədbirlərdə kənddə istirahət etmək istəyən turistlər üçün normal şəraitin yaradılması ilə turizm mövsümü ərzində yaxşı gəlirlər əldə etməyin mümkünlüyü diqqətə çatdırılır.

Həyata keçirilən məqsədyönlü tədbirlər öz bəhrəsini verib. Əgər əvvəllər ancaq Batabata gedən yolun üstündə yerləşən Biçənəkdə evlər kirayə verilirdisə, bu gün artıq demək olar ki, belə təcrübə muxtar respublikamızın digər bölgələrinə də yayılıb. İndi ən səfalı kəndlərimizdə – Xanəgahda, Ağbulaqda, Dırnısda, Şahbulaqda, Küküdə və onlarla belə yaşayış məntəqələrində turistlərə evlər təklif olunur. Artıq 40-dan çox kirayə ev haqqında məlumat Turizm İnformasiya Mərkəzinin saytında *(turizm.nakhchivan.az)* yerləşdirilib.

Muxtar respublikada turizm sahibkarlığının da inkişafına diqqət yetirilir. Kənd turizminin inkişafı məqsədilə İqtisadiyyat Nazirliyi tərəfindən kreditlər verilir.

İlk istirahət mərkəzi müstəqillik illərində Ağbulaqda salınıb. Ağbulaq İstirahət Mərkəzi kənd turizminin tətbiq olunduğu ilk məkan kimi diqqəti çəkir. Həmin mərkəzin yerləşdiyi bu kənd gözəl mənzərəsi, flora və faunasının zənginliyi ilə seçilir. Bu məkanın ilin bütün fəsillərində hər kəsin üzünə açıqdır. İstirahət mərkəzi salınandan, demək olar ki, Ağbulaq hər gün qonaqlı-qaralı olur. Mərkəzdə çalışan işçilər də elə bu kəndin sakinləridir. Bu da əhalinin məşğulluğunun təmin olunması baxımından əhəmiyyətlidir. Kənd əhalisinin məşğuliyyətini heyvandarlıq və arıçılıq təşkil edir. Kənddə istirahət mərkəzi yaradılandan təsərrüfatın müxtəlif sahələrinə, məsələn, meyvəçiliyə, quşçuluğa da maraq artıb. Təsərrüfatlarını genişləndirən ağbulaqlılar indi evlərini də kirayə verməklə gəlir əldə edə bilirlər.

Muxtar respublika kəndlərinin füsunkar təbiət mənzərələri həyata keçirilən quruculuq tədbirləri ilə vəhdət təşkil edir. İndi hansı səmtə üz tutsan, kənd yaşayış məntəqələrində ancaq rahat yollarla, müasir memarlıq üslubunda ucaldılan binalarla və şübhəsiz, gözəl təbiət mənzərələri ilə qarşılaşacaqsan. Onu da bildirək ki, turistlər Naxçıvan kəndləri üçün yeni model olan xidmət mərkəzlərindən də istifadə edə bilərlər.

Füsunkar təbiət mənzərələrinə malik bir sıra kəndlər həm də dünya əhəmiyyətli tarixi abidələrlə tanınır. Culfa istiqamətində belə abidələrdən Əlincə qalasını, Gülüstan türbəsini və Xanəgah Abidələr Kompleksini misal göstərə bilərik. Həmin abidələrə artan maraq bu kəndlərdə turizmin inkişafını qaçılmaz edib. Bu yaşayış məntəqələrində həyata keçirilən kompleks quruculuq tədbirləri əhalinin daha sıx məskunlaşmasına və yeni evlərin salınmasına şərait yaradıb.

Ərəfsə pirinin və Əlincə çayının üzərində tikilmiş orta əsrlərə aid daş körpüsü, dörd bir tərəfi əzəmətli dağlarla əhatələnmiş səfalı guşələri olan Ərəfsə kəndini istirahət məqsədilə seçənlər buradakı kirayə evlərdən faydalana bilərlər.

Qızmar yay günlərində istirahət üçün ideal məkan kimi Ordubad rayonunun kəndlərini seçənlər də az deyil. Buna misal olaraq Pəzməri kəndini göstərmək olar. Təbiət öz səxavətini bu kənddən əsirgəməyib. Qaplançay, Pəzməri şəlaləri, zəngin təbiəti, dumduru bulaq suları bu kəndi məşhurlaşdırıb. Onu da qeyd edək ki, bu kənd rayonun kiçik yaşayış məntəqələrindəndir. Lakin təbiətinin zənginliyinə görə daha çox turist cəlb etmək imkanına malikdir. Əzəmətli dağlarla əhatə olunan və yaşıllıqlar arasından boy göstərən kənd gözəlliyi ilə göz oxşayır.

Bağçaları barlı-bəhərli, süfrələri zəngin olan Dırnıs kəndinin sakinlərinin də qapısı qonaqların üzünə həmişə açıqdır. Kənd yaşıl turizm həvəskarları çox da tələbkar deyillər. Turizmin bu növü ilə məşğul olmaq üçün minimal tələblərə cavab verən kənd evləri kifayət edir. Dırnısda evlərin əksəriyyəti mənzərəli ərazidə, çay kənarında yerləşir.

Məlumat üçün bildirək ki, sovet dövründə təbiətinin zənginliyinə, iqliminə görə düşərgə salınan kəndlər Dırnıs, Ağbulaq, bir də Şərur rayonunun Şahbulaq kəndləri olub. Hər yay dövrü məktəblilər bu ərazilərdə istirahət edibər. O dövrdə cəlbedici amil bu yerlərin təbiəti olub. Bu gün isə vəziyyət tam fərqlidir. Yəni yalnız məktəblilər deyil, xarici turistləri qəbul edə biləcək səviyyədə kənd yaşayış məntəqələrimiz inkişaf edib.

Hər il yüzlərlə turist şəhərlərin səsli-küylü həyatından uzaq olan təbiətin qoynunda dincəlmək üçün səfalı yerlərə üz tutur. Bu mənada, hər bir turist rahatlıqla növbəti dəfə Şahbulağı seçə bilər. Sərt görkəmi ilə yolu hər iki tərəfdən çəpərləyən dağlar da buradadır, suyu ilə ürəklərə sərinlik verən buz bulaqlar da. Əzəmətli dağlar bu kəndi üzük qaşı kimi əhatəyə alıb.

Bu yerlərin gözəl təbiəti insanlarının da ruhuna sirayət edib. O qədər mehribandırlar ki, hansı qapını açsan, səni doğmaları kimi qarşılayacaqlar. Turizmin inkişafına səbəb olan amillərdən biri də elə qonaqpərvərlikdir. Çünki kənd yaşıl turizminin inkişafı yerli sakinlərin təşəbbüskarlığı və qonaqpərvərliyindən də asılıdır.

Turisti cəlb edən məqamlardan biri də mətbəxdir. Biz özümüz də hər hansısa bir ölkəyə getdikdə əvvəlcə mətbəxi ilə maraqlanırıq. Əgər mətbəx zəngin, yeməklər dadlıdırsa, heç zaman yediyimiz yeməklərin ləzzətini unutmarıq. Naxçıvan mətbəxi də bu cəhətdən turistlərin diqqətini cəlb edir.

Torpaqdan ikiəlli yapışan kənd adamlarının həyatlarından məhsulları yığmaqla bitməz. Burada, necə deyərlər, bir quş südü çatmır. Arıçılıq kənd adamlarının əsas məşğuliyyətlərindəndir. Bununla belə, meyvələrdən cürbəcür kompot, mürəbbə hazırlayar, süfrələrini əllərinin əməyi olan nemətlərlə zənginləşdirərlər. İstehsal etdikləri, öz zəhmətlərinin bəhrəsi olan məhsullar – bal, şor-kərə, qatıq, pendir digər kənd məhsulları – ətdən hazırlanan cürbəcür yeməklər, bağdan yenicə dərilib gətirilən dadlı-tamlı meyvələr süfrələrinin bərəkətidir. Bir sözlə, süfrədə nə varsa, ekoloji cəhətdən saf, insan orqanizmi üçün faydalı məhsullardır. Ən əsası, bu yerlərin saf havası, gözəl mənzərəsi insanın ruhunu qidalandırır.

Turist bir ölkəyə səfər etdikdə onu maraqlandıran məqamlardan biri də həmin yerin insanlarının məşğuliyyəti, adət-ənənəsi olur. Kənd yaşayış məntəqələrimizdə yaşayan və xalq sənətkarlığının ayrı-ayrı sahələrini yaşadan sənətkarlar əl işlərini satmaqla da gəlir əldə edə bilərlər.

Muxtar respublikada kənd turizminin real vəziyyəti perspektivdə bu sahənin əhatə dairəsinin genişlənəcəyindən xəbər verir.

Yay tətilini mənalı keçirmək üçün ölkə sərhədlərindən kənara çıxmaq şərt deyil. İstirahətinizi səmərəli keçirməyi düşünürsünüzsə, uca dağların qoynunda yerləşən, şəfalı bulaqları, təmiz havası, gülərüz insanları ilə kəndlərimiz sizi gözləyir. Kənd turizminin verdiyi imkanlardan faydalanmaqla həm pulunuza qənaət etmiş olar, həm də qeyd etdiyimiz kimi, ruhunuzu qidalandıra bilərsiniz. Səfər etdiyiniz kəndlərdən çəkdiyiniz fotoları sosial şəbəkələrdə paylaşmaqla muxtar respublikaya turist cəlb edə də bilərsiniz.

Unutmayaq ki, turistlər həm də informasiya daşıyıcılarıdır. Turist səfər etdiyi ölkənin təbiəti, şəfalı bulaqları, ləziz mətbəxi, tarixi və mədəniyyəti, qonaqpərvərliyi ilə bağlı məlumatları öz ölkəsinə aparır və təbliğ edir. Mütəxəssislərin də fikrincə, ölkəyə gələn hər bir turist xidmətdən məmnun qalırsa, geri qayıdandan sonra o ölkənin təbliğatçısına çevrilir və özündən sonra onlarla insanın da bura səfər etməsinə səbəb ola bilir. Yaxşı xidmətlə qarşılaşmayanda isə bu, antireklama çevrilir. Turizmi zəncirvarı bir halqaya bənzətmək olar. O halqanı genişləndirmək üçün hər birimiz üzərimizə düşən vəzifəni layiqincə yerinə yetirməliyik.

**Ruhiyyə RƏSULOVA**

***Naxçıvan Dövlət Televiziyasının baş redaktoru***

## Səyyar həkim briqadası Naxçıvanda 134 müayinə aparıb

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə yüksəkixtisaslı həkim briqadalarının Bakı şəhərindən dəvət olunaraq muxtar respublikamıza gətirilməsi və aztəminatlı ailələrdən olan xəstələrin başqa ünvanlara üz tutmadan müayinəsinin və cərrahiyyə əməliyyatlarının təşkili davam etdirilir.***

Bölgədə analoqu olmayan Naxçıvan Muxtar Respublika Xəstəxanasında mövcud olan müasir tibbi avadanlıq və cihazlar, yaradılmış şərait burada mürəkkəb cərrahi əməliyyatların aparılmasına imkan verir. Yüksəkixtisaslı həkim briqadaları yerli həkimlərlə birgə hər il çoxlu sayda müayinələr, müxtəlif cərrahi əməliyyatlar aparırlar.

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin səyyar klinikası son iki ay ərzində Naxçıvan Muxtar Respublika Xəstəxanasında üçüncü dəfə humanitar tibbi aksiya keçirib.

Həkim-oftalmoloqlardan Humay Bayramova, Rəvanə Həsənova və Lalə Məmmədovadan ibarət səyyar briqada 8-9 iyun tarixlərində 134 müayinə aparıb, pasiyentlərə tibbi məsləhət və tövsiyələr verib. Səyyar aksiyada göstərilən xidmətlərdən əsasən, uşaqlar, eləcə də gənclər istifadə edib.

Ordubad rayonunun Dırnıs kənd sakini Malik Səfərov bildirib ki, aksiya çərçivəsində iki övladı müayinədən keçirilib, lazımi təyinat yazılıb. O, övladlarını başqa yerlərə aparmadan Naxçıvan Muxtar Respublika Xəstəxanasında pulsuz müayinə etdirdiyinə görə minnətdarlığını bildirib, bütün bunları aztəminatlı ailələrdən olan xəstələrə yönəldilmiş xüsusi sağlamlıq layihələrinin uğurlu icrası kimi dəyərləndirib.

Mərkəzin baş həkimi Aytən Sultanova muxtar respublika xəstəxanasında belə müayinələrin ilboyu, ayda bir dəfə olmaqla keçiriləcəyini bildirib.

## Elmi-praktik konfrans

***Naxçıvan Muxtar Respublika Xəstəxanasında "Endokrinologiyanın aktual problemləri" mövzusunda elmi-praktik konfrans keçirilib.***

Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Samrat Gəncəyeva səhiyyə sisteminin inkişafına dövlət qayğısının artırılmasının, bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsinin, infrastrukturun yenidən qurulmasının digər sahələr kimi, endokrinologiya sistemində də mühüm irəliləyişlərə şərait yaratdığını bildirib.

Sonra Bakı şəhərində tibbi fəaliyyət göstərən "Bakı" klinikasının endokrinoloqu, tibb elmləri üzrə fəlsəfə doktoru Rauf Cabbarovun "I və II tip şəkərli diabet xəstəliyi və onun müalicəsi", Bakı şəhəri Mərkəzi Dənizçilər Xəstəxanasının Endokrinoloji xəstəliklər şöbəsinin müdiri Nazim Rüstəmovun "II tip şəkərli diabet xəstələrində insulin terapiyası", Sumqayıt şəhərinin baş endokrinoloqu Vahid Kərimovun "Şəkərli diabet və ürək-damar sistemi xəstəlikləri", Naxçıvan Muxtar Respublika Xəstəxanası Endokrinologiya şöbəsinin müdiri Aysel Dünyamalıyevanın "Naxçıvan Muxtar Respublikasında şəkərli diabet xəstəliyinin epidemiologiyası" mövzularında məruzələri dinlənilib.

Mütəxəssislər şəkərli diabetin tipləri, risk faktorları, diaqnostikası, dərman vasitələrinin seçilməsi və müalicə işinin təşkilində müasir üsullar barədə məlumat veriblər. Bildirilib ki, şəkərli diabet endokrin sistemin ən geniş yayılmış xəstəliklərindən biridir. Hər il qeydə alınan ölüm hallarının 5 faizi bu xəstəlik nəticəsində baş verir. Odur ki, xəstəliklə mübarizə hazırda dünya səhiyyəsinin ən aktual məsələlərindən biridir.

Muxtar respublikanın tibb müəssisələrində çalışan endokrinoloq, terapevt, pediatr, nevroloq, cərrah, ginekoloqların, rezident və Naxçıvan Dövlət Universiteti Tibb fakültəsi, Naxçıvan Tibb Kolleci tələbələrinin iştirak etdiyi konfransda müzakirələr aparılıb, tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Naxçıvanda boks üzrə yeniyetmələr arasında “Heydər Əliyev kuboku-2017” beynəlxalq turnirinin açılışı olub





*Naxçıvanda Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman nazirlikləri, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Boks federasiyalarının birgə təşkilatçılığı ilə boks üzrə yeniyetmələr arasında “Heydər Əliyev kuboku-2017” beynəlxalq turnirinə start verilib.*

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən turnirdə Qırğızıstan, Özbəkistan, Gürcüstan, Ukrayna, Macarıstan, İran, Qazaxıstan, Rusiya idmançıları ilə yanaşı, Azərbaycan Respublikası, o cümlədən Naxçıvan Muxtar Respublikasının boksçuları da mübarizə aparırlar.

İyunun 12-də beynəlxalq turnirin açılış mərasimi keçirilib. Qonaqlar əvvəlcə ümummilli liderimizin Naxçıvan şəhərinin baş meydanında ucalan abidəsinin önünə gül dəstələri qoyublar. Sonra Heydər Əliyev Muzeyinə gələrək buradakı eksponatlarla tanış olublar.

Turnirin açılış mərasimində çıxış edən muxtar respublikanın gənclər və idman naziri Azad Cabbarov bildirib ki, Azərbaycanda, eləcə də onun Naxçıvan Muxtar Respublikasında idmanın inkişafı, gənc idmançılar nəslinin yetişdirilməsi diqqət mərkəzində saxlanılır. Yaradılan şəraitin nəticəsidir ki, bu gün Naxçıvan beynəlxalq idman yarışlarına ev sahibliyi edir. Muxtar respublikada idmanın maddi-texniki və təşkilati-hüquqi bazası xeyli möhkəmləndirilib. Hazırda muxtar respublikada 40 minə yaxın yeniyetmə və gənc bədən tərbiyəsi və idmanla məşğul olur. Naxçıvanlı idmançılar ölkə və dünya əhəmiyyətli yarışlarda təmsil olunur və uğurlara imza atırlar. Muxtar respublikada uğurla fəaliyyət göstərən idman federasiyalarından biri də 2002-ci ildə yaradılan Naxçıvan Muxtar Respublikasının Boks Federasiyasıdır. Federasiya bu idman növünün muxtar respublikada kütləviliyi, yeniyetmə və gənclərin idman bölmələrinə cəlbi istiqamətində məqsədyönlü iş aparır.

Vurğulanıb ki, mütəmadi olaraq ixtisaslı mütəxəssislərin dəvət olunması, texniki-taktiki seminarların təşkil edilməsi boks idman növü üzrə müxtəlif yaş qruplarında komandaların formalaşmasına müsbət təsir edib. Artıq muxtar respublika boksçuları yeniyetmələr, gənclər və kişilərdən ibarət yığma komandalara cəlb olunur, müxtəlif uğurlara imza atırlar. Bu gün isə İlham Əliyev adına Olimpiya-İdman Kompleksində ilk dəfə olaraq boks üzrə yeniyetmələr arasında “Heydər Əliyev kuboku-2017” beynəlxalq turniri keçirilir.

Azərbaycan Boks Federasiyasının birinci vitse-prezidenti, millət vəkili Ağacan Əbiyev çıxış edərək deyib ki, Naxçıvanda boks idman növünün inkişafına xüsusi diqqət göstərilir. Ümummilli liderin xatirəsinə həsr olunmuş boks üzrə beynəlxalq turnirdə dünyanın bu növdə sayılıb-seçilən ölkələri iştirak edir. Ağacan Əbiyev muxtar respublikada güclü idman infrastrukturunun yaradıldığını vurğulayıb, yarışın təşkilatçılarına minnətdarlığını bildirib, idmançılara uğurlar arzulayıb.

Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Açılış mərasiminin bədii hissəsində Naxçıvan Dövlət Filarmoniyasının mahnı və rəqs ansamblının bir-birindən rəngarəng çıxışları olub.

Bədii hissədən sonra turnirə start verilib. Ümumilikdə, 100-ə yaxın idmançının mübarizə apardığı beynəlxalq turnirin ikinci günündə 48, 50, 52, 54, 63, 66, 70, 80 və +80 kiloqram çəki dərəcələrində yarımfinalçılar məlum olub.

**“Şərq qapısı”**

*Gənc istedadlar*

## Gələcəyin memarı

***Çalışqanlığı və istedadı ilə fərqlənən Anar Sadiqov Naxçıvan Dövlət Universitetinin Memarlıq ixtisasının 3-cü kurs tələbəsidir. Tələbə Elmi Cəmiyyətinin konfransında onun çıxışını dinləmişdim. Bundan sonra bu gəncin əl işləri ilə yaxından maraqlanmağa başladım. Bu yaxınlarda isə Anarla görüşüb həmsöhbət olduq. Öyrəndim ki, o, 1996-cı ildə Naxçıvan şəhərində anadan olub, şəhər 14 nömrəli tam orta məktəbi bitirib. Bu sənətə marağı onda əmisi, Naxçıvan Muxtar Respublikasının Əməkdar memarı İlqar Sadiqov yaradıb. Kiçik yaşlarından başlayaraq maketlər düzəldib.***



Anar 2014-cü ildə Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin Memarlıq ixtisasına qəbul olub. Bundan sonra daha da səylə çalışmağı qarşısına məqsəd qoyub. Elə birinci kursda işlədiyi layihələr uğurlu olduğu üçün Naxçıvan Dövlət Universitetində keçirilən sərgilərdə nümayiş etdirilib.

O, təhsil aldığı müddət ərzində muxtar respublikada keçirilən bir sıra müsabiqələrdə iştirak edib. Naxçıvan Dövlət Universiteti, Naxçıvan Şəhər İcra Hakimiyyəti və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən “Landşaft memarlığı” adlı müsabiqədə uğur qazanaraq 3-cü yerə layiq görülüb. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi, Gənclər və İdman Nazirliyi və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun birgə təşkilatçılığı ilə keçirilən Naxçıvan şəhərinin təbiəti, tarixi və memarlıq abidələrinin fotomüsabiqəsində də iştirak edərək üçüncü yerə layiq görülüb. Naxçıvan Dövlət Universiteti Tələbə Elmi Cəmiyyəti xətti ilə təşkil olunmuş müsabiqədə “Naxçıvanın müasir memarlığında Əcəmi yaradıcılığı” mövzusunda işi ilə birinci dərəcəli diplomla təltif edilib.

Anarın birinci kursda işlədiyi ilk layihəsi gələcəkdə Naxçıvan Dövlət Universitetinin girişində milli ornamentlərdən istifadə edilərək tikilməsi nəzərdə tutulan yeni üslubda memarlıq abidəsi olub. O, həmin layihəsində mədəniyyətimizi, təhsilimizi, dövlətçiliyimizi Əcəmi yaradıcılığı ilə üzvi vəhdətdə təsvir edib.

Anar digər bir layihəsini də Naxçıvan Dövlət Universiteti Tarix-filologiya fakültəsinin yerləşdiyi binanın fasadının yenidən layihələndirilməsinə həsr edib. Həmin layihədə, əsasən, binanın fasadında Naxçıvan memarlıq məktəbinin elementlərindən məharətlə istifadə olunub.

Onun gələcəkdə tikilməsi nəzərdə tutulan “Rektorluq binası” layihəsi də maraqlıdır. Bina zirzəmi qatı ilə birlikdə dördmərtəbəlidir. Bu binada rektorluğun ayrı-ayrı bölmələri ilə bərabər, iclas zalı, Heydər Əliyev Universiteti, Atatürk Mərkəzi və sair otaqlara da yer ayrılıb. Binanın fasadında Anar Sadiqovun milli üslubda işlədiyi həndəsi naxışlar Əcəmi memarlıq məktəbinin nümunəsidir.

O, hazırda 3 layihə üzərində işləyir. Onlardan biri universitet daxilində avtomobil dayanacağının inşası layihəsidir. Digərləri isə Tibb, Sosial idarəetmə və hüquq fakültələri binalarının yenidən layihələndirilməsidir.

Anar Sadiqovla söhbətimizdən aydın olur ki, müəllimləri və ailəsi onun ixtisaslı bir kadr kimi yetişməsi üçün əllərindən gələni əsirgəmirlər. Eləcə də Memarlıq kafedrasının müdiri, dosent Gülnarə Qənbərova onun memar kimi yetişməsində səylə çalışır.

Anar gələcəkdə Naxçıvanla bağlı layihələrə imza atmaq arzusundadır. O, bu layihələrdə mədəniyyətimizi əks etdirən ornament və naxışlara üstünlük verəcəyini deyir.

Bu gün muxtar respublikada istedadlı, müxtəlif yaradıcılıq sahələri üzrə ixtisaslaşmış gənclərə ehtiyac var. Ona görə də belə gənclərin üzə çıxarılması üçün tədbirlər görülür, onlar dövlətin hərtərəfli diqqət və qayğısını öz üzərlərində hiss edirlər. Bu da gənclərin qarşısında mühüm vəzifələr qoyur: çalışmaq, təşəbbüs göstərmək, ixtisaslı kadr kimi formalaşaraq cəmiyyətə faydalı olmaq.

İstedadlı gənclərimizdən olan, bacarıq, zəhmət tələb edən memarlıq kimi yaradıcı sənətin öhdəsindən müvəffəqiyyətlə gələn Anara bu çətin və məsuliyyətli yolda uğurlar arzulayırıq.

**Fatma BABAYEVA**

***Muxtar respublikanın mədəniyyət müəssisələri tərəfindən əhalinin asudə vaxtının səmərəli təşkili üçün müxtəlif tədbirlər həyata keçirilir.***

## Bəhruz Kəngərli adına Rəssamlar Parkında konsert keçirilib



İyunun 10-da Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan şəhərindəki Bəhruz Kəngərli adına Rəssamlar Parkında konsert təşkil edilib.

Konsertin aparıcısı bildirib ki, hər il olduğu kimi, bu il də şəhərimizin istirahət guşələrində musiqi kollektivləri tərəfindən əhaliyə rəngarəng konsert proqramları təqdim ediləcəkdir.

Konsertdə Naxçıvan Musiqi Kollecinin “Gənclik” İnstrumental Ansamblı və Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin “Gitaraçalanlar” ansamblı çıxış edib.

Naxçıvan Musiqi Kollecinin “Gənclik” İnstrumental Ansamblının solistləri Samir İsmayılov, Əfsanə Babayeva, İlkin Abdullayevin ifasında Azərbaycan xalq mahnıları, bəstəkarlarımızın populyar əsərləri səsləndirilib. “Naxçıvanım”, “Bulağa gəlsin”, “Qara gözlüm”, “Payız gəldi”, “Sənin gülüşün”, “Güllər” və başqa mahnılar tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin “Gitaraçalanlar” ansamblının ifası, Naxçıvan Musiqi Kollecinin qızlardan ibarət vokal qrupunun çıxışı tamaşaçılarda xoş əhval-ruhiyyə yaradıb.

Növbəti konsert proqramı bu həftənin şənbə günü təşkil ediləcək.

**Əli RZAYEV**

*İtmişdir*

Naxçıvan şəhərinin Qaraxanbəyli kəndində yaşamış Rzayeva Havabəyim Mirbaba qızının adına olan 1-2015A inventar nömrəli, 10304028 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

“R-Enerji” Məhdud Məsuliyyətli Cəmiyyətinə (VÖEN-0200800501) aid ƏDV-nin qeydiyyat bildirişi itdiyindən etibarsız sayılır.

*Bildiriş*

“Blue Azərbaycan” Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN-0200751141) fəaliyyətini dayandırdığından ləğv olunur.

* * *

“R-Enerji” Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN-0200800501) fəaliyyətini dayandırdığından ləğv olunur.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 491